# Heydər Əliyev müstəqil Azərbaycanın təməl prinsiplərini formalaşdırıb

**Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının təşkilatçılığı ilə Azərbaycan İlahiyyat İnstitutunda "91-lər"dən olan Şahlar Əsgərovun "Heydər Əliyevin həyatının unikal səhifələri" kitabının təqdimat mərasimi keçirilib.**




Tədbiri giriş sözü ilə açan Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov Heydər Əliyev ideyalarının xalqımızın mənəvi sərvəti olduğunu vurğulayıb. O, sözügedən kitabın Ümummilli Liderin Azərbaycan tarixindəki əvəzsiz xidmətlərinin ictimai diqqətə çatdırılması üçün mühüm mənbə olduğunu qeyd edib.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi mərhələlər dövlətçiliyimizin və xalqımızın intibahında tarixi əhəmiyyət daşıyıb.

Kitabın müəllifi, YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən olan professor Şahlar Əsgərov çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın tərəqqisinə həsr edib. Onun sözlərinə görə, müstəqil Azərbaycan Ulu Öndərimizin şah əsəridir. Ş.Əsgərov kitabda Heydər Əliyevin xalqımız qarşısında xidmətlərinin əks olunduğunu diqqətə çatdırıb. Müəllif Heydər Əliyevin milli-mənəvi dəyərlərə daim böyük önəm verdiyini və bütün həyatı boyu bu dəyərləri qoruduğunu vurğulayıb.

Çıxış edən YAP İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Mübariz Qurbanlı Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycanın təməl prinsiplərini formalaşdırdığını qeyd edib. Çünki Heydər Əliyevin xalqımız qarşısında xidmətləri o qədər böyük və zəngindir ki, bu, hər zaman tədqiqatlar mövzusu olacaq. Heydər Əliyev yolu Azərbaycanın gələcək inkişafında da mayak rolunu oynayacaq.

Tədbirdə həmçinin AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru Səlahəddin Xəlilov, "91-lər"dən olan Novruz Quliyev çıxış edərək Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən bəhs edib, təqdimatı keçirilən kitabın bu irsin öyrənilməsi baxımından əhəmiyyətini diqqətə çatdırıblar. Onlar gəncləri Heydər Əliyev irsini dərindən öyrənməyə çağırıblar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 1 may, № 88.- S.7.